

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 mart 2023-cü il №23 (2735) https://mod.gov.az Qiyməti 30 qəpik


*Heydər Əliyev - 100*

## Azərbaycanın müstəqilliyini əbədi, dönməz edən dahi şəxsiyyət

*Azərbaycan xalqının mübarizə tarixində Heydər Əliyevin adı Böyük Xilaskar, Əbədiyaşar Komandan, Dahi Şəxsiyyət, Ümummilli Lider, Ulu Öndər kimi əbədiləşdi.*



O, müstəqilliyimizi əbədi, dönməz edən tarixi şəxsiyyət kimi tarixləşdi.

Görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan milli dövlətçiliyini bütün təhlükələrdən xilas edib qoruyan və inkişaf etdirən qüdrətli Ulu Öndərin həyat və fəaliyyəti müasir tariximizin ən mühüm və şərəfli mərhələsini təşkil edib və etməkdədir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev respublikamıza rəhbərliyinin bütün dövrlərində öz xalqına xidmət, sonsuz məhəbbət amalı ilə yaşayıb yaratmışdır. Bu gün müstəqil, demokratik respublikamızın müasir bir dövlət kimi mövcud olmasında, dünya birliyində özünəlayiq yer tutmasında Dahi Rəhbərin müstəsna xidmətləri vardır. Müstəqilliyini yenicə bərpa edən Azərbaycan dövlətinin güclənməsinə əvəzsiz töhfələr vermiş Ulu Öndər Heydər Əliyev xalqımıza siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş Azərbaycanı bəxş etdi. Böyük dühа sahibi Ümummilli Lider deyirdi: "Doğma, canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblәgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm. Bundan sonrakı ömrümü də onun işıqlı sabahları uğrunda verməyə hazıram".

Bu gün əminliklə demək olar ki, respublikamızın böyük çətinliklər bahasına əldə etdiyi suverenliyinin, iqtisadi müstəqilliyinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən məhz ötən əsrin 70-80-ci illərində qoyulmuş möhkəm təmələ, güclü intellektual potensiala söykənir. Bu möhkəm təməl müstəqillik illərində Azərbaycan dövlətinin sürətli inkişafına təkan verdi.

Ulu Öndərin ölkəmizə rəhbərliyinin ikinci dövrü, 1993-cü ildə Naxçıvandan Bakıya gəlməsi ziddiyyətli, qarışıq bir vaxta təsadüf etmişdi. Belə ki, 1993-cü ildə xalqımızın təkidli tələbi ilə xilaskar missiyası ilə qayıdan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev o dövrdə ölkəmizdə baş alıb gedən özbaşınalığın, hakimiyyətsizliyin, qanunsuz fəaliyyət göstərən silahlı dəstələrin, vətəndaş müharibəsinin, xaosun və digər xoşagəlməz hadisələrin qarşısının alınması üçün öz canına və həyatına olan böyük təhlükələrə baxmayaraq, ölkəmizdə hökm sürən anarxiyanın, dövlət çevrilişi cəhdlərinin qarşısını aldı, qanunsuz silahlı dəstələr zərərsizləşdirildi. Orduda vahid komandanlıq yaradıldı. Bununla da respublikamızda sabitlik bərqərar olundu, ölkədə demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna başlanıldı.

Azərbaycanda qısa bir zaman kəsiyində hökm sürən iqtisadi tənəzzülün qarşısını alan Ulu Öndər respublikamızın davamlı iqtisadi inkişafı istiqamətlərində islahatlar həyata keçirdi. Öz şərəfli və möhtəşəm fəaliyyəti ilə müasir müstəqil Azırbaycan dövlətini yaratdı, onun idarəçilik mexanizmini formalaşdırdı. Azərbaycan xalqının Ümummilli Lideri müstəqil Azərbaycanın bir dövlət kimi əbədi olmasını, onun müstəqilliyinin daim qorunmasını özünün ən ali işi, ümdə vəzifəsi bilirdi. Ulu Öndər bu barədə danışarkən qeyd edirdi: "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin əsarəti altına düşməyəcək".

Dahi şəxsiyyət, unudulmaz sərkərdə ömür boyu xalqa arxalanmışdı. Xalqı özünə arxa-dayaq bilirdi. "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib". Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Ulu Öndərin göstərdiyi qətiyyət, dəmir iradə bu sözlərdəki gerçəyi dəfələrlə təsdiqləyib. Müasir Azərbaycanın yaradıcısı və fədakar oğlu öz həyatının mənasını doğma xalqına xidmətdə görürdü, bu məqsədlə də yorulmadan çalışırdı. Ulu Öndərin mənalı ömür yolu Vətənə sədaqət nümunəsidir.

Dünyanın ən tanınmış siyasətçiləri bu böyük zəka sahibinin işlərini, dəyərli irsini örnək kimi qəbul edirdilər. Çünki bu siyasətçilər hələ Sovet İttifaqı dövründə onun nəhəng işlərin həyata keçirilməsinə qadir olduğunun şahidi idilər. Heydər Əliyev dühası hər zaman başımızın üstündə parlayan günəşdir, onun ideyaları, tövsiyələri və müqəddəs irsi fəaliyyətimizi istiqamətləndirən təkrarolunmaz güc mənbəyidir.

Bu gün Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır və siyasi kursu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli Liderin başladığı, lakin sona çatdıra bilmədiyi işlər dövlət başçısı tərəfindən ardıcıllıqla həyata keçirilir. Azərbaycanın müstəqilliyini əbədi, dönməz edən dahi şəxsiyyətin ideyaları həmişə yaşayacaqdır.

**"Azərbaycan Ordusu"**




Dağlar kimi vüqarlı əsgərlər...

2-ci səhifədə



Ruhumuzun qibləgahıdır Ana Vətən

3-cü səhifədə



Tarixin qanlı səhifəsi

4-cü səhifədə



Türkün igidliyi, şəhidliyi

7-ci səhifədə

# Bakıda keçirilən "Çoxmillətli Sülhü Dəstək Əməliyyatları kursu" başa çatıb





*Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə nazirlikləri arasında imzalanan ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, ölkəmizdə keçirilən "Çoxmillətli Sülhü Dəstək Əməliyyatları kursu" başa çatıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi hissənin şəxsi heyətinin, Birləşmiş Krallığın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Auldun, o cümlədən Britaniya Hərbi Məsləhətçi Təlim Qrupunun mütəxəssislərinin və dinləyicilərin iştirakı ilə kursu bitirənlərə sertifikatlar təqdim olunub.



Mərasimdə çıxış edənlər bu cür kursların qarşılıqlı təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayıblar.

Qeyd olunub ki, təlim qrupunun mütəxəssislərinin iştirakı ilə keçirilən kursda hərbi qulluqçulara Sülhə Dəstək Əməliyyatları, BMT-nin kodeksinə uyğun davranış qaydaları və silahlı münaqişə hüququ, eləcə də digər mövzular üzrə praktiki təlimlər keçirilib .

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.



*Təlim*

# Dağlar kimi vüqarlı əsgərlər...

Dağlar qoynunda yerləşən hərbi hissədəyik. Əvvəlki günlərə nisbətən hava xeyli dəyişib. Beş-altı gün əvvəl səmanınənginliklərindən boylanan Günəş gözə dəymir. Göyün üzünü ağlı-qaralı buludlar örtüb. Başı göylərə söykənən dağlarda davam edən soyuq hava şəraiti hərbçilərin gündəlik xidməti fəaliyyətlərinə əngəl törətmir. Vətən qarşısındakı övladlıq borcunu şərəflə yerinə yetirən zabit və əsgərlər bu soyuq qış günündə də təlim keçir, döyüş hazırlıqlarını artırırlar.

Dağlar qoynunda döyüş hazırlığını artıran hərbi qulluqçularla görüşmək üçün uca zirvələrin arxasındakı təlim mərkəzinə yollanırıq. Yollar çətin olsa da, sürücü avtomobili məharətlə idarə edir, dik və dolanbac yollardan bacarıqla keçir.

Yol yoldaşımız zabit Pərviz Pirməmmədovu Aprel döyüşlərindən tanıyıram. Ordumuz üçün uğurla başa çatan həmin döyüşlərin iştirakçısı olan zabit 2016-cı ilin aprelində yarımçıq qalmış döyüşlərini İkinci Qarabağ müharibəsində böyük uğurlarla davam etdirib. 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində böyük hünər və qəhrəmanlıqlar göstərib.

Söhbətimiz zamanı zabit P.Pirməmmədov deyir ki, İkinci Qarabağ müharibəsində başlayan döyüşlərimiz qığılcımını Aprel döyüşlərindən götürmüşdü. Ordumuz döyüşlərdə də, İkinci Qarabağ müharibəsində də erməni qəsbkarlarına sarsıdıcı zərbələr vurdu. Vətən müharibəsi ordumuzun qələbəsi ilə başa çatdı. Böyük Qələbədən sonra hərbi qulluqçularla təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq, xidmətləri uğurla davam etdirir, təlim-məşqlər keçirlər.

Vətənpərvərlik mövzusuna köklənmiş söhbətimizi davam etdirə-etdirə hərbi qulluqçularla məşğələ keçdikləri təlim mərkəzinə gəlib çatırıq.

Atış çalışması yerinə yetirən şəxsi heyətə yaxınlaşırıq. İlk həmsöhbətimiz kapitan Taleh Alcəfərov olur. Zabit deyir ki, əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Hava şəraitindən asılı olmayaraq, həmişə təlim keçir, əsgərlərimizə müasir döyüş vərdişlərini aşılayırıq. Heç kimə sirr deyil ki, əsgərin hazırlığı nə qədər yüksək olarsa, düşməni məqamındaca məhv edə bilər. Gördüyünüz kimi, əsgərlərimiz atış çalışmalarını uğurla yerinə yetirirlər. Onlar bu çalışmalarda nişanalma bacarıqlarını təkmilləşdirirlər. Xidmətə məsuliyyət və sevgi ilə yanaşdıqlarına görə əsgərlərimiz zəruri vərdişləri az müddət ərzində mənimsəyirlər. Onların təlimlərdə qazandıqları uğurlar bizi çox sevindirir. Gərgin keçən dərs və məşğələlər arxada qaldıqca əsgərlərin təcrübəsi daha da artır. Qısa müddət ərzində onlar bacarıqlı və peşəkar əsgərlər olurlar.

Kapitan T.Alcəfərovun söylədiklərini dinlədikdən sonra atış çalışmasının gedişini izlədik. Zabit Fərman Həsənov atış çalışmasını yerinə yetirəcək əsgərləri təlimatlandıraraq təhlükəsizlik və atışın qaydalarını ətraflı izah edir, bildirir ki, atış çalışması üç mərhələdən ibarətdir. Əsgərlər birinci mərhələdə ayaqüstə, ikinci mərhələdə diziüstə, üçüncü mərhələdə isə uzanıqlı vəziyyətdə hədəfə atəş açmalıdırlar. Təlimatlandırma başa çatdıqdan sonra əsgərlər atəş açacaqları xəttə yaxınlaşırlar. Az keçmiş kapitan F.Həsənovun atəş əmri eşidilir. Əsgərlər hədəfi nişan alıb, tətiyi çəkirlər. Ətrafa çökmüş sükutu pozan atəş səsləri qarlı dağlarda əks-səda verir. Bütün mərhələlərdə hədəfləri dəqiq vuraraq, uğur qazanan əsgərlərin simasında sevinc və məğrurluq var.

Tapşırığı uğurla yerinə yetirən əsgərlərlə də söhbətləşirik. Əsgər Rəvan Abuzərov ordu sıralarına Ağsu rayonundan çağırılıb. Artıq xidmətinin xeyli hissəsi arxada qalıb. Rəvan deyir ki, İkinci Qarabağ müharibəsi başlayanda orta məktəbdə oxuyurdu. Ona görə də yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edə bilməyib. O, buna çox təəssüflənir. "Hələ kiçik yaşlarımdan ermənilərə törətdikləri faciələrə görə nifrət bəsləyirdim. Arzulayırdım ki, bu faciələrin intiqamının ermənilərdən alınmasında, torpaqlarımızın işğaldan azad olunmasında mən də iştirak edim. Amma bu mənə qismət olmadı. Şükürlər olsun ki, arzularımı cəsur Azərbaycan əsgəri yerinə yetirdi. Doğma Qarabağımız, başqa rayonlarımız rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində işğaldan azad olundu. Bir ildən çoxdur ki, ordu sıralarındayam. Mənim üçün çox sevindirici haldır ki, torpaqlarımızın azadlığı uğrunda vuruşmuş zabitlərlə, gizirlərlə bir yerdə xidmət edirəm. Onların bəziləri döyüşlərdə yaralanıblar. Sağalandan sonra yenə də xidmətlərini davam etdirirlər. Dərs və məşğələlər zamanı onlar Vətən müharibəsində qazandıqları döyüş vərdişlərini də bizə öyrədirlər. Biz əsgərlər də ordumuza böyük uğur qazandırmış döyüş təcrübəsini həvəslə öyrənirik".

- Atış çalışmasında ilk dəfə deyil ki, iştirak edirik. İndiyə qədər belə məşğələləri çox keçmişik, - deyə əsgər Asim İbrahimov söhbətimizə qoşulur. - Hava şəraitindən asılı olmayaraq, biz hədəfləri dəqiq vurduq. Çalışma bir daha göstərdi ki, hazırlığımız yüksək səviyyədədir. İndiyə qədər keçirilən dərs və məşğələlərdə xeyli təcrübə qazanmışıq. Hərbi bilik və döyüş vərdişlərini mükəmməl mənimsəmişik.



Deməli, istənilən hava şəraitində düşməni məhv etməyə qadirik. Əminlik hissi ilə deyə bilərəm ki, bu cür yüksək hazırlıq xidmətimizin hər anında bizə uğur qazandıracaq.

Daha sonra atış çalışmasında iştirak etmiş əsgərlərdən Sərxan Həsrətov, Orxan Tağıyev və başqaları ilə də həmsöhbət olduq. Onların vətənpərvərlikdən yoğrulmuş fikir və sözlərini xoş duyğularla dinlədik. Eşitdiklərimizdən, gördüklərimizdən ürəyimiz dağa döndü. Atış çalışmasının yerinə yetirilməsində uğur qazandıqlarına görə əsgərlər çox qürurlu və vüqarlı görünürdülər.

Zirvələri göylərə söykənən dağlarda xidmət edən zabit və əsgərlərlə söhbətimiz yavaş-yavaş sona yaxınlaşır. Atış çalışması isə səngimək bilmədən öz axarı ilə davam edir. Getdikcə gurlaşan atəş səsləri qarlı dağlarda əks-səda verib.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

Reportaj

# Ruhumuzun qibləgahıdır Ana Vətən

*Yol bizi Qarabağa aparır. Qış fəsli olmasına baxmayaraq, günəşin şəfəqləri sanki canı və qanı ilə torpağı vətənləşdirən oğulların ruhlarıtək yolumuzu işıqlandırırdı. Yol boyu müşahidə etdiyimiz və müharibədən qalan izlər artıq yox olmaq üzrədir. Burada aparılan tikinti-quruculuq işləri firavan həyatın yenidən bərpa olunacağı günün uzaqda olmadığının göstəricisidir. 44 günlük haqq savaşında Qələbənin qazanılmasında qət olunan şanlı yol xəyalımda canlanır. Cəsur döyüşçülərimizin qarış-qarış düşməndən azad etdiyi tarixi Vətən torpağı, şəhadət zirvəsinə ucalan oğullarımızın yazdığı tarixi salnamədən doğan fikir döyüş postuna qədər olan məsafəyə körpü salır.*



Gizir Pərviz Həsənov ilə tanış olub söhbətləşirik. "Qəhrəman Azərbaycan əsgəri Ali Baş Komandanın əmri ilə tarixi torpaqlarımızı azad etdi. Bir zamanlar qəlbimizin nisgilinə çevrilən, uzun illər mənfur düşmən işğalında olan torpaqlarımızda xidmət edirik. Bu gün soyuqda, sazaqda içimizi qızdıran əsas məfhum müqəddəs amala xidmət etmək hissidir. Doğma yurdumuz artıq işğaldan azad olunub və gördüyünüz bu yerlər ruhumuzun qibləgahıdır - Vətəndir. Çünki bu yerlərin hər qarışı uğrunda qəhrəman oğullarımız canlarını sipər ediblər. Bölməmizin şəxsi heyəti bu məsuliyyətli və qürurlu vəzifəni böyük həvəslə icra edir. Hər biri Vətən hüdudlarının müdafiəsində dayanmaqdan və qalib ordunun mundirini daşımaqdan fəxarət hissi duyur. Bölməmizdə olan yüksək əhval-ruhiyyənin əsas səbəbləri də məhz bunlardır. Şəxsi heyətin gündəlik fəaliyyətinin lazımi səviyyədə təşkil etməsi üçün əlverişli sosial-məişət və xidmət şəraiti yaradılıb. Səngərdə xidmət edən əsgərlərin hər biri ayrı-ayrılıqda bir qəhrəmandır. Vətəni layiqincə qorumaq qəhrəmanlığın təcəssümüdür. Vətəni sevmək hər bir layiqli vətəndaş üçün müqəddəs vəzifədir. Bu torpaqlar bizə ata-babalarımızdan əmanətdir", - gizir P.Həsənov dedi.





Əsgər Sakit Məmmədov əslən Cəbrayıl rayonundandır. O əraziləri bu günə qədər görmək Sakitə qismət olmasa da, doğma yurdunun işğaldan azad olunması xəbəri onun həyatında ən əlamətdar hadisələrdən biri olub. "Rayonumuz uzun illər düşmən tərəfindən işğal olunmuşdu. Məhz bu səbəbdən də doğma Cəbrayılımı canlı görməmişəm. Doğmalarımın işğaldan qabaq çəkdirdikləri şəkillərdə o ərazilərin təbiətinin əsrarəngizliyinin, füsunkarlığının şahidi olmuşam. Doğmalarım ata-baba yurdlarından didərgin düşmələrini qəlb nisgilinə çevirmişdilər. Şükürlər olsun ki, bu gün doğma yurdumuz işğaldan azaddır. Müharibə zamanı qalib Azərbaycan Ordusu tarixi ərazilərimizdə qanunsuz məskunlaşan mənfur düşməni torpaqlarımızdan qovub çıxarırdı. Həmin günlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışlarını səbirsizliklə gözləyirdik", - əsgər fikirlərini bizimlə bölüşdü.

Əsgər Ağamoğlan Ağamoğlanovla tanış oluruq və müsahibim söhbətə başlayır: "Vətənə övladlıq borcumuzu işğaldan azad olunmuş torpaqlarımızda ödəməyimiz bizim məsuliyyətimizi və qürurumuzu daha da artırır. Burada çox şey qazanmışam. Dözümlülük, mərdlik və möhkəm iradə keyfiyyətlərlə daha da bərkimişəm. Məsuliyyətli xidmətimlə verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirməyə çalışıram. Mənə təhkim olunmuş silahı təmiz saxlayıram. Çünki silah döyüş növbətçiliyi zamanı ən yaxın dostumdu.

Əsgər Emin Qarayev qeyd edir ki, 44 günlük haqq savaşının iştirakçısı olmasa da, komandirlərinin onlarla bölüşdüyü müharibə təəssüratları və təcrübələr əsasında o savaşlar anbaan gözlərinin önündə canlanır. "44 günlük haqq savaşımızda cəsur oğullarımız qəhrəmanlıq salnaməsi yazdılar. 30 ilə yaxın işğalda olan tarixi torpaqlarımız düşməndən təmizləndi. Komandirlərimiz bizimlə söhbət əsnasında döyüşlərlə bağlı fikirlərini bölüşür, şəhidlərimizin, igid oğullarımızın göstərdiyi rəşadətdən danışırlar. Onların keçdiyi xidmət yolu bizim üçün nümunədir".

Əsgərlər Murad Mahmudov, Ülvi Kərimov və Kair Manafovla da həmsöhbət oluruq. Vətən eşqinin onların bütün ruhunu bürüməsi hər kəlmədən bəlli olur. Bir daha əmin oluruq ki, Azərbaycan əsgəri ruhu ilə Vətənə bağlıdır. Hər dəfə əsgərlərimizlə kəlmələşdikdə qalib ordunun əsgəri adını daşımanın verdiyi qürur, Vətən sevgisi, müqəddəs amala xidmət etmənin insana bəxş etdiyi fəxarət hissinin vacibliyini onların gözlərindən və sözlərindən hiss etmişik. Azərbaycan əsgəri dilinə gətirdiyi fikri nümunəvi xidməti ilə təsdiq edir. Qüdrətli ordunun əsgəri olmaq elə budur. Gücümüzə güc qatan amil də budur. Vətən müdafiəçiləri fərd olaraq dəyişsə də, amal birdir - Vətəni qorumaq, onu sevmək, uğrunda canını belə fəda etmək. Azərbaycan əsgəri olmaq şərəfli bir vəzifədir. Çünki Vətən əsgərin ruhunun qidası, əsgər Vətənin bütövlüyünün təminatçısıdır.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

Nümunəvi xidmət

# Tələbkar çavuş

Hər insanın həyatında arzu etdiyi bir peşə olur. Bütün varlığı ilə həmin peşəyə yiyələnmək üçün yollar arayır. Təəssüf ki, bəzi hallarda, müxtəlif səbəblərdən insan istəyinə də çata bilmir. Bizim ömür yolu haqqında söhbət açacağımız çavuş Musaməddin Ağamalıyev hələ kiçik yaşlarından arzu etdiyi peşəyə sonsuz sevgi bəsləyən gənclərdəndir. Onun doğulub boya-başa çatdığı Tovuz rayonunun Bayramlı kəndinin sakinləri də ermənilərin başladığı torpaq iddiasının ağrı-acısını çəkirlər. Musaməddin özünü dərk edən vaxtlardan doğma rayonun ərazisinin müntəzəm olaraq erməni hücumlarına məruz qaldığının şahidi olub. El-obanı qorumaq üçün böyüyəndə hərbçi olmaq qərarına gəlib.

Bu günlərdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Musaməddin Ağəli oğlu Ağamalıyevin 30 yaşı tamam oldu. O, həyatından da, seçdiyi peşədən də razıdır. Ağ örpəyə bürünmüş uca dağların qoynunda xidmət etməyin özü də igidlik, qəhrəmanlıq, vətənpərvərlik nümunəsidir. Müddətli həqiqi hərbi xidmətini də cəbhə bölgəsində başa vurmuş Musaməddin bütün çətinliklərə baxmayaraq, yenidən ordu sıralarına qayıtmaq qərarına gəlib.



Çavuş Musaməddin Ağamalıyev Vətənimizin mürəkkəb iqliminə malik dağlıq ərazidə xidmət etməklə üzərinə düşən vəzifə borcunu ləyaqətlə yerinə yetirməyə çalışır. Qışın oğlan çağında qarlı, şaxtalı havada düşmənlə üz-üzə əli silahlı Vətənin keşiyində dayanmağın özü də insandan böyük fədakarlıq tələb edir. Vətənini ermənilərin hücumlarından müdafiə etmək naminə istənilən çətinliklərə sinə gərməyə hazırdır. Musaməddin deyir ki, hələ hərbi xidmətə gəlməmişdən əvvəl onu hansı məsuliyyətli vəzifələrin gözlədiyini yaxşı bilirdi. El-obasını yağılardan qorumaq üçün qarşıda çətinliklərin olmasına baxmayaraq, onun məqsədi, amalı yalnız hərbçi olmaq olub. Artıq 7 ilə yaxındır müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini şərəflə davam etdirir. Bu illər ərzində həm komandirlərin, həm də tabeliyində olan əsgərlərin dərin hörmətini qazanıb. Nümunəvi xidmətinə görə komandanlıq tərəfindən dəfələrlə mükafatlandırılıb. Musaməddin təlim-məşğələləri zamanı tabeliyində olan əsgərlərə hücum və müdafiənin incəliklərini öyrədir. Döyüş növbətçiliyi zamanı sayıqlığı yüksək səviyyədə təmin etmək məqsədilə əsgərlərdən nizamnamələrin tələblərinə əməl etməyi tapşırır.

Əsl komandir də belə olmalıdır. O, əvvəlcə tabeliyində olanları öyrədir, daha sonra isə onlardan yiyələndikləri bilik və bacarıqların tətbiqini tələb edir. Çavuş M.Ağamalıyev bax, belə tələbkar kiçik komandirlərdəndir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Tank bölmələrinin döyüş hazırlığı təkmilləşdirilir

2023-cü ilin hazırlıq planına əsasən ümumqoşun poliqonunda Azərbaycan Ordusunun tank bölmələri ilə döyüş hazırlığı üzrə müxtəlif çalışmalar yerinə yetirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tank heyətləri ərazidə təbii və süni maneələrin dəf edilməsi, döyüş maşınlarının idarə olunması, şərti düşmən hədəflərinin yerindən və hərəkətdə məhv edilməsi üzrə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

Hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, eləcə də döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimlər davam edir.



31 Mart - Azərbaycanlıların Soyqırımı Günüdür

# Tarixin qanlı səhifəsi

***Ermənilər tarixin bütün mərhələlərində xalqımıza qarşı insanlığa yaraşmayan qanlı əməlləri ilə yadda qalıblar. Xalqımızın başına gətirilən ən dəhşətli faciələrdən biri 1918-ci ilin 30 mart - 3 aprel tarixində daşnak-bolşevik dəstələri tərəfindən törədilən soyqırımı olub. Bu soyqırımı amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində ən qanlı faciələrdən biridir. Bu soyqırımı barədə çox sözlər deyilib, kitablar yazılıb, fikirlər səsləndirilib, filmlər çəkilib. Bütün bunlar həqiqəti dünyaya çatdırmaq, erməni xislətini aşkara çıxarmaq üçündür.***

Məşhur fransız diplomatı Loresin dediyi kimi: "Danışmaq lazımdır ki, həqiqət açılsın".

Zor gücünə mənfur qonşularımız olmağı bacaran ermənilər tarixin müxtəlif dövrlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımlar həyata keçiriblər. 1918-ci ildə azərbaycanlılara qarşı həyata keçirilən bu soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Kürdəmirdə, Lənkəranda, Gəncədə və digər bölgələrdə xüsusi qəddarlıqla törədilib. Bu ərazilərdə dinc əhali kütləvi surətdə öldürüldü, diri-diri yandırıldı.

1918-ci il martın 15-də S.Şaumyan Bakı Sovetinin iclasında "Bakı Soveti Cənubi Qafqazda vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir" - deyərək, əslində, azərbaycanlıların soyqırımına göstəriş verdi. Bakıda törədilən 1918-ci ilin mart soyqırımında "Daşnaksütyun" bolşeviklərin zərbə qüvvəsini təşkil etdi. Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edilən S.Şaumyan mart soyqırımının əsas təşkilatçısı və icraçısı idi. Bu cinayəti həyata keçirmək üçün lazım olan şəraiti də ermənilər yaradırlar. Azərbaycan milyonçusu Hacı Zeynalabdin Tağıyevin Lənkəranda xidmət edən oğlu Məhəmməd Tağıyev Lənkəran şəhərində baş verən ixtilafda bolşevik erməni silahlı dəstələri tərəfindən qətlə yetirildi. Martın 27-nə təyin edilən dəfndə iştirak edəcək müsəlman alayının zabitləri Lənkərandan Bakıya gəldilər. Dəfndən sonra zabitlər "Evelina" gəmisi ilə geri qayıtmalı idilər. Axtardıqları əlverişli məqamın çatdığını görən ermənilər gizli şəkildə Rus Milli Şurası, Xəzər matrosları, eser və menşevik partiyaları arasında guya "Evelina" ilə gedən zabitlərin Lənkəranda olan müsəlman hərbi dəstələri ilə birlikdə Muğandakı rus-malakan kəndlərini məhv edəcəkləri şayiəsini yaydılar. Gözlədikləri kimi, bütün qeyri-azərbaycanlı siyasi və hərbi qüvvələr "Evelina" gəmisinin tərk-silah edilməsinə tərəfdar oldu.

Martın 30-da Bakı şəhəri mədən-zavod rayonlarının İnqilabi Müdafiə Komitəsi yaradıldı. Komitənin təşəbbüsü ilə sözügedən gəminin Lənkərana yola düşməsi dayandırıldı və gəmidəki zabitlər tərk-silah edildi.

Azərbaycan milli təşkilatlarının nümayəndələri İnqilabi Komitəyə gələrək alınmış silahları "Hümmət" müsəlman bolşevik komitəsi vasitəsilə qaytarmağa cəhd göstərdilər. Martın 30-da Nəriman Nərimanovun evində S.Şaumyanla və həmin gün İnqilabi Müdafiə Komitəsində M.Ə.Rəsulzadə ilə keçirilən görüşlərdə müəyyən razılıq əldə edilərək, silahların qaytarılmasına vəd verilsə də, bolşevik-daşnak koalisiyası sözünə əməl etmədi...

1918-ci il martın 31-də səhər tezdən bolşevik-daşnak dəstələri azərbaycanlılar yaşayan məhəllələrə hücuma keçdilər. Dinc azərbaycanlıların qırğınında Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda, "Daşnaksütyun" partiyasının 4 minlik silahlı dəstəsi iştirak edirdi. S.Şaumyanın xahişi və V.İ.Leninin xüsusi göstərişi ilə Saritsından göndərilən 2 təyyarə havadan, hərbi gəmilər isə dənizdən şəhərin azərbaycanlılar yaşayan məhəllələrini bombalamağa başladılar. Azərbaycan xalqına divan tutmaq üçün əllərinə fürsət düşmüş daşnaklar erməni neft sənayeçilərinin barjlarında qoyulmuş toplardan Abşeronun şimalındakı kəndləri də atəşə tutdular. Qeyri-bərabər döyüşdə müsəlmanların müqaviməti dayandırmalarına baxmayaraq, yaxşı silahlanmış və hazırlanmış erməni əsgərləri müsəlmanların evlərinə soxulur, sakinləri öldürür, onları xəncər ilə doğrayır, uşaqları yanan evlərin içinə atır, körpə uşaqları süngülərin ucuna keçirirdilər. Dinc əhalini qorxudan dəhşətə gətirib, istədiklərinə nail olmaq üçün hər cür vəhşiliyə əl atan bolşevik-erməni cəlladları müsəlman qadınlarını daha ağır formada qətlə yetirirdilər. Şəhərin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 müsəlman qadının meyiti tapılmışdı. Çoxlu gənc qadını diri-diri divara mıxlamışdılar. Qaçıb canını qurtarmağa çalışan əhalini güllənbaran etmək üçün şəhərin müvafiq yerlərində əvvəlcədən pulemyotlar qoyulmuşdu. Müsəlmanların soyqırımı aprelin 2-də gecəyədək davam etdi. Bolşevik-daşnak birləşmələri həmin günlərdə "Kaspi" mətbəəsini, "Açıq söz", "Bakı" qəzetlərinin redaksiyasını, "İsmailiyyə" binasını yandırmış, "Təzə pir" məscidinin minarələrini top atəşləri ilə dağıtmışdılar. Bunun nəticəsində Bakıda 15 mindən, bölgələrdə 38 mindən artıq azərbaycanlı qətlə yetirildi.



Şah məscidi 1918-ci il 31 mart hadisələrindən sonra

Bir çox müsəlman məhəllələri məhv edildikdən sonra martın 31-də axşamüstü İçərişəhərin alınması əməliyyatı başlandı. Bununla bağlı Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra yaradılan Fövqəladə İstintaq Komissiyası sədrinin Ədliyyə Nazirliyinə təqdim etdiyi məruzədə aşağıdakı faktlar göstərilir: Nikolay (indiki İstiqlaliyyət) küçəsilə hücuma keçmiş erməni əsgərlərinə başlıca olaraq, erməni ziyalılarının nümayəndələri rəhbərlik ediblər. Belə dəstələrdən biri evə girib, səkkiz qadın və uşağı güllələmişdir. Başqa dəstə Fars küçəsində Bala Əhməd Muxtarovun evinə girərək, doqquz müsəlmanı küçəyə çıxarmış və kilsə meydanında güllələmiş, meyitlərin ikisini "Dağıstan" mehmanxanasındakı alovun içinə atmışdır...

31 Mart soyqırımının statistikası xüsusi qəddarlıqla həyata keçirilən bəşəri cinayətin dəhşəti haqqında kifayət qədər aydın mənzərə yaradır. Hadisələrdə Bakı, Şamaxı, Muğan, Quba və Lənkəranda 50 mindən çox azərbaycanlı xüsusi amansızlıqla qətlə yetirilmiş, 10 minlərlə insan öz torpaqlarından qovulmuşdu. ABŞ-ın kəşfiyyat mənbələrinə görə, 60 min Azərbaycan türkü qaçqına çevrildi və 420 müsəlman kəndi dağıdıldı.

O günlərdə bolşevik-daşnak dəstələri azərbaycanlılara həlak olmuş yaxınlarını dəfn etməyə icazə vermirdi. Onlar cəsədləri yanan binalara atır, quyulara, dənizə tökürdülər. Bakıda Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin tam hakimiyyətinin bərqərar olması qurbanların dəqiq sayının hesablanmasına imkan vermədi. Lakin İranın Bakıdakı konsulu Məhəmməd Səid-ol Vesarə Marağeyinin yazdığına görə, təkcə onun yaratdığı xüsusi komissiya tərəfindən Bakının küçə və həyətlərindən 5000-dən çox müsəlmanın meyiti toplanmış və dəfn olunmuşdu. Menşeviklərin "Naş qolos" qəzeti həmin günləri belə təsvir edirdi: "Hər tərəf meyitlərlə doludur - yanıb kül olmuş, doğranmış, eybəcər hala salınmış meyitlər…".

Tarixin səhifələri vərəqləndikcə yeni-yeni faktlar, erməni vəhşiliyinin tükürpədən səhnələri üzə çıxır. Son vaxtlar məlumatların dəqiqləşdirilməsi istiqamətində axtarışlar genişləndirilir. Təkzibolunmaz arxiv sənədləri, soyqırımlarını təsdiqləyən çoxsaylı dəlil-sübutlar aşkarlanır.

Təkcə Şamaxıda 1918-ci ilin mart-aprel aylarında öldürülənlərin sayı bəzi məlumatlarda bu rəqəmin 7 min, bəzilərində 8-12 min, hətta 40 min olduğu göstərilir. Öldürülənlərin sayının dəqiqləşdirilməsi ilə bağlı ötən əsrin 90-cı illərindən etibarən yerli tədqiqatçılar da bir sıra araşdırmalar apardılar. Onların tədqiqatı nəticəsində yüz nəfərə yaxın şahiddən toplanan xatirə və məlumatlar müəyyən edilib ki, erməni cinayətkarları - S.Şaumyan, S.Lalayev, Z.Arestisyan, T.Əmirov və A.Əmiryan qardaşlarının rəhbərliyi ilə Şamaxı şəhərində təqribən 14-16 min nəfər qətlə yetirilib. Didərgin düşənlərin sayı isə 18 min nəfərdən çox olub.

Həmin dəhşətli günlərin şahidi olmuş alman A.Y.Kluqe qeyd edirdi ki, ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hamını öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdı. Ermənilər uşaqlara da, yaşlılara da rəhm etməmişdilər.

M.Ə.Rəsulzadə A.Y.Kluqeyə istinadla yazırdı: "Kluqenin, digər əcnəbilərin o günlərin xatirəsi olmaq üzrə almış olduqları və bu gün əllərdə mövcud olan fotolar çox faciəli mənzərələri əks etdirir. Bir yığın qızlı-erkəkli cocuq ölüləri üzərində qocaman çoban köpəkləri bu məsum yavruları gəmirir... Çılpaq bir qadın yerə sərilmiş, ölmüş... bu ölü vücudun qurumuş məməsini canlı bir yavru əmməkdədir...".

Lənkəran da 1918-ci ilin mart - aprel hadisələri zamanı erməni daşnaklarının təcavüzünə məruz qalan bölgələrdən biri olub. Həmin dövrdə Lənkəran şəhərində, rayonun Mamusta, Yuxarı Nüvədi, Vilvan, Veravul, Girdəni, Cil, Osaküçə, Darquba, Gərmətük, Sütəmurdov və digər kəndlərində kütləvi qətliamlar törədilib. Ümumilikdə, Lənkəran və ətraf rayonlarda 40-dək yaşayış məntəqəsi yandırılmaqla yerlə-yeksan edilib, 2000-dən çox dinc sakin qətlə yetirilib...

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciələrin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını - ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. Martın 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Ümummilli Matəm Günü elan olundu. Bununla da azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət verməyə cəhd göstərildi. Lakin Cümhuriyyətin süqutu bu sahədə başlanmış işi yarımçıq qoydu.

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunandan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq məqsədilə həyata keçməsi vacib olan qərarların məntiqi davamı olaraq, soyqırımı hadisələrinə siyasi qiymət vermək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 26 mart 1998-ci ildə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmandan sonra başlandı. 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 31 mart ilə əlaqədar olaraq Azərbaycan xalqına müraciətində deyilirdi: "Xalqımıza qarşı törədilmiş soyqırımı haqqında həqiqətləri real faktlar, dəlillər əsasında dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq, saxta erməni təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, ona hüquqi-siyasi qiymət verdirmək nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi bu gün də, gələcəkdə də davam etdirilməlidir. Bu, soyqırımı qurbanlarının xatirəsi qarşısında indiki nəslin müqəddəs borcudur".

(Ardı 5-ci səhifədə)

(Əvvəli 4-cü səhifədə)

Erməni-bolşevik silahlı dəstələrinin 105 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə ictimaiyyətinə, eləcə də dünyanın bir çox guşələrində yaşayan həmvətənlərimizə, diaspor təşkilatlarına, xaricdəki səfirliklərimizə daha dolğun çatdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 18 yanvar 2018-ci ildə "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzaladı.

Soyqırımlar Azərbaycan xalqının məqsədli şəkildə başına gətirilən faciələrdir. Ermənilər Bağanis-Ayrımda, Meşəlidə, Qaradağlıda, Xocalıda soyqırımlar törətdilər. Erməni xisləti bəşəriliyə düşmənçilikdir. Bütün bu çətinliklərin qarşısında daim dik dayanan xalqımızın, Azərbaycan Ordusunun gücü, qüdrəti Vətən müharibəsində özünü bir daha göstərdi...

Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş 31 mart soyqırımından 105 il ötür. Azərbaycan xalqı və dövləti soyqırımı qurbanlarının xatirəsini daim əziz tutur, bütün dünyanı erməni faşizminin iç üzünü görmək üçün bu tarixi hadisələrdən ibrət götürməyə çağırır.

**Kapitan
Günay TAĞIYEVA
"Azərbaycan Ordusu"**



Məqaləyə "İstiqlal" qəzetinin 29 mart 1919-cu il il tarixli sayında dərc edilən 31 mart soyqırımı qurbanlarının birinci ildönümünün Matəm Gününə həsr olunan məqaləsindən sətirlərlə başlamaq istəyirəm: "... Matəm bizə vətənpərvərliyi bildirəcək, Vətən yolunda ölməyin, Vətən üçün qurban verməyin mənəvi ləzzətini hiss etdirəcəkdir. Matəm istiqlal və hürriyyətimizin mənəvi dirəyi olacaqdır. Hüriyyət və istiqlaliyyət üçün ölmək bir şərəf, yaşamaq bir vəzifədir. Rəhmət olsun Sizə, ey şəhidlər! Hörmət və təzim olsun Sizə, ey Vətən qəhrəmanları! Salam və dua olsun Sizə, ey millət fədailəri!"

Ötən əsrin əvvəllərində bolşevik-erməni silahlı birləşmələrinin Azərbaycan ərazisində həyata keçirdikləri kütləvi etnik təmizləmə və təcavüzkar siyasət nəticəsində Bakı, Quba, Şamaxı, Göyçay, Cavad, Salyan, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran, Gəncə və digər bölgələrdə on minlərlə günahsız azərbaycanlı qətlə yetirilmişdir. Xalqımıza qarşı XX yüzilliyin ən faciəli soyqırımlarından biri törədilmişdir. Tarixi faktlar sübut edir ki, 1918-ci ilin aprel-may aylarında təkcə Quba qəzasında 167 kənd tamamilə dağıdılıb, şəhərin mərkəzi talan edilib, evlər yandırılıb, qəzanın müsəlman və qismən də yəhudi əhalisi kütləvi şəkildə qətllərə məruz qalıb. O dəhşətli faciələrdən, kütləvi qırğınlardan bizi 105 illik zaman kəsiyi ayırsa da, qanlı hadisələrin qanlı izləri bu gün də qalmaqdadır.

2007-ci ilin aprelin əvvəlində Quba şəhərində tikinti məqsədilə aparılan qazıntılar zamanı təsadüfən aşkar edilmiş kütləvi məzarlıq 1918-ci il aprel-may aylarında ermənilər tərəfindən törədilmiş Qubanın müsəlman əhalisinin soyqırımının əyani sübutudur. Qeyd edək ki, dövlətimizin başçısı İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli Sərəncamına uyğun olaraq, erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı 1918-ci ildə bütün ölkə hüdudlarında həyata keçirdikləri cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin yaradılmasına qərar verilmişdi. Memorial kompleks 2012-2013-cü illərdə inşa edilib. Onu da qeyd etmək yerinə düşər ki, 2013-cü ildə kompleksin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak etmişdi.

31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar olaraq materiallar hazırlamaq məqsədilə Quba şəhərinə ezam olunduq. Burada ötən əsrin əvvəllərində erməni daşnak qüvvələrinin törətdiyi kütləvi insan qırğınlarının qanlı izləri Quba "Soyqırımı Memorial Kompleksi"nin ərazisində xalqımızın yaddaşında yaşatmaq üçün qorunur. Erməni vəhşilərinin törətdiyi qırğınlar, talanlar barədə canlı şahidlərin acı xatirələri nəsildən nəslə keçərək bu gün də danışılmaqdadır.

Quba "Soyqırımı Memorial Kompleksi"nin direktoru, tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramova söhbətinə Cümhuriyyət parlamentinin orqanı olan "Azərbaycan" qəzetinin 8 dekabr 1918-ci il tarixli sayındakı məqalədən götürülmüş bu sətirlərlə başladı: "Biz öz məqsədlərinə nail olmaq üçün heç bir vasitədən çəkinməyən siyasi düşmənlərimizə bənzəyə bilmərik və bənzəmək istəmirik. Biz təmkin və soyuqqanlılıqla haqlı olduğumuzu tam dərk edərək təmiz vicdanla öz məqsədimizə doğru gedirik və inanırıq ki, ətrafımızda olan bütün xalqlara münasibətdə bizim loyallığımız, səmimiliyimiz və sadəliyimiz kin və eqoist ehtirasların gözlərini gerçəkliyə qapamadığı hər kəs tərəfindən nəhayət ki, etiraf olunacaq və qiymətləndiriləcək. Fakt göz qabağındadır. Kim istəyirsə, yoxlaya bilər".

Eyni zamanda, direktor qeyd etdi ki, bu sətirlər muzeyin ekspozisiyasına Azərbaycan xalqının 1918-ci il qırğınlarına münasibətini əks etdirən epiqraf kimi verilib. "Memorial kompleksin ekspozisiyasının müəllifi tarix elmləri doktoru, professor Solmaz Rüstəmova - Tohiddir. Abidə-muzeyin giriş, əsas zal və çıxış hissələrində yerləşdirilmiş ekspozisiyasında 1918-ci il mart-iyul aylarında Bakı quberniyasının beş qəzasında - Bakı, Şamaxı, Quba, Göyçay və Cavad qəzalarında müsəlman əhalisinin soyqırımı tarixi öz əksini geniş tapıb. Kompleksin memarlıq quruluşunda hüznlüyü əks etdirən məqamlara xüsusi önəm verilmişdir. Yaşanmış hadisələrin miqyası, ağırlığı və acılığı faciə qurbanlarının xatirəsinə dərin hörmət əlaməti olaraq hər hansı dekorasiyadan istifadə edilməmişdir. Burada matəm sükutunu təmkinlə təcəssüm etdirən möhtəşəm ekspozisiya ziyarətçilərimizə azərbaycanlıların soyqırımı tarixini dəqiq və xronoloji ardıcıllıqla çatdırır. Quba "Soyqırımı Memorial Kompleksi" türk-müsəlman dünyasında erməni vandalizmini özündə əks etdirən yeganə ideoloji mərkəz və ilk Cümhuriyyət şəhidlərinin - 1918-ci ildə soyqırıma məruz qalmış günahsız insanların uyuduğu müqəddəs yerdir. Erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı 1918-ci və sonrakı illərdə bütün ölkə hüdudlarında həyata keçirdikləri cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması, soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə tarixi həqiqətlərin üzə çıxarılması istiqamətində kompleksimizdə elmi araşdırmalar aparılır, beynəlxalq tədbirlər və təbliğat kampaniyaları keçirilir, çap məhsulları hazırlanır, müxtəlif çoxsaylı layihələr həyata keçirilir. Soyqırımı hadisələri hansı ölkədə törədilməsindən asılı olmayaraq, bu insanlığa qarşı yönəlmiş ümumbəşəri cinayətdir. Biz hər zaman dinc sakinlərə qarşı yönəlmiş və terrora əsaslanan faşizm hərəkətlərinə qarşı öz etirazımızı bildirməli, gələcəkdə bir daha bu kimi dəhşət dolu vandalizm hərəkətlərinin təkrarlanmaması üçün birlik nümayiş etdirməliyik. Tarixinə sahib çıxan xalq məğlubedilməzdir".

Ekspozisiyadakı matəm sükutu bizi sanki o qanlı illərə aparır, soyqırıma məruz qalmış həmvətənlərimizin çarəsiz görkəmlərini gözlər önünə sərir. Hər bir lövhə tarixin dəhşət dolu, insanlığın unudulduğu anları bizə xatırladır. Bir anlıq o faciələrin şahidinə çevrilirsən. Sənədlər, fotoşəkillər, bütün eksponatlar ziyarətə gələnlərə ermənilərin törətdiyi o dəhşətli insan qırğınlarından danışır. 1918-ci il qətliamları, qırğınları, talanları, yanğınları tariximizin qanla yazılan səhifələridir. Hər bir azərbaycanlı bu səhifəni sətir-sətir oxuyub əzbərləməli, unutmamalıdır. Erməni vəhşilərinin törətdiyi bu soyqırımlarını uzun illər xalqımıza unutdurmağa çalışsalar da, sovet dönəmində gizlətsələr də, nəhayət, tarixi həqiqət üzə çıxdı, öz yerini tapdı.

Rəxşəndə xanımla söhbətimizdən o da aydın olur ki, elmi işinin mövzusu Quba bölgəsi ilə bağlıdır. Mövzusu "Azərbaycan Xalq Cümhuriyyətində Quba bölgəsi" adlanır. O, Quba soyqırımı ilə bağlı çoxlu sayda arxiv sənədlərinə əsaslanan geniş araşdırma apardığını dedi: "Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yarandıqdan ay yarım sonra ölkə ərazisində baş verən qanlı hadisələrə münasibət bildirməyi zəruri sayır. Ona görə də 1914-cü ildən Birinci Dünya müharibəsi başladığı vaxtdan bolşevik adı altında erməni quldur dəstələri tərəfindən müsəlman əhalisinə və onun mülkiyyətinə qarşı törədilən zorakılıq hallarını araşdırmaq məqsədilə 1918-ci il 15 iyul tarixində Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərar qəbul edir. Əvvəl Xarici İşlər, sonra Ədliyyə Nazirliyi yanında fəaliyyət göstərən FTK-nın sədri dövrünün tanınmış hüquqşünası Ələkbər bəy Xasməmmədov idi. Təhqiqat komissiyası Quba qəzasında 1918-ci ilin dekabrından işləməyə başlayır. Qısa müddət ərzində onlarla şahid dindirilir, hadisələrin baş verdiyi yerlərə baxış keçirilir. Çoxlu sayda sənədlər toplanaraq üç cild, 451 vərəqdən ibarət istintaq materialı hazırlanır. Komissiyanın topladığı sənədlər ermənilərin cinayətlərini bütün təfərrüatı ilə ifşa etməklə yanaşı, Quba hadisələrinin də erməni millətçilərinin "Böyük Ermənistan"ın ərazisi kimi baxdıqları Azərbaycanın bütün regionlarında müsəlman əhalisinin sayının maksimum dərəcədə azaldılmasına can atan daha irimiqyaslı əməliyyatlarının, planlarının tərkib hissəsi olduğunu sübut edir".

Direktor "31 Mart Azərbaycanlıların Soyqırımı" tarixinin 105 illiyi ilə əlaqədar olaraq müvafiq tədbirlər planı hazırladıqlarını dedi: "Bildiyimiz kimi, bu il həm də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyidir. Biz bir yenilik etdik. Heydər Əliyev Mərkəzlərində xalqımızın soyqırımı faciəsini əks etdirən 105 fotoşəkildən ibarət baner formasında sərgilər keçirməyi qərara aldıq. Artıq İmişli, Beyləqan, Biləsuvar, Kürdəmir rayonlarında, Sumqayıt şəhərində, Bakı şəhəri, Yasamal rayonunda yerləşən Heydər Əliyev Mərkəzlərində sərgilər təşkil etmişik. Bu il "Heydər Əliyev İli" çərçivəsində posterlər hazırlamışıq. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra azərbaycanlıların soyqırımı tarixinə ilk dəfə 1998-ci ildə Ulu Öndər tərəfindən hüquqi qiymət verilmişdir. Məlumat üçün bildirim ki, soyqırımı faciəsini əks etdirən fotoşəkillər 1918-ci ildə polşalı fotoqraf Lev Daşkoviç tərəfindən çəkilmişdir. Bu şəkillərin bir hissəsi Azərbaycan Milli Dövlət Arxi-




vində, bir hissəsi isə Cümhuriyyət parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun Parisdəki arxivində qorunub saxlanılırdı. Onu da qeyd edim ki, Quba "Soyqırımı Memorial Kompleksin"nin fəaliyyətə başlamasından 10 il keçir. Hazırda soyqırımı kompleksi qoruq statusundadır. Ərazisi 3,5 hektardır. 10 il ərzində 1 milyondan artıq ziyarətçimiz olub. Bunlardan 178 mini xarici ölkələrdən gələn ziyarətçilərdir. Kompleksdə 4 dildə - ərəb, rus, ingilis və Azərbaycan dillərində sinxron tərcümə ziyarətçilərə təqdim olunur. Əməkdaşlarımız yetərincə məlumatlı mütəxəssislərdirlər. Dəfələrlə olub ki, ziyarətçilər faciənin ağırlığına dözə bilməyib muzeydən gözü yaşlı çıxıblar.

Onu da qeyd edim ki, müxtəlif layihələrimiz var və məktəblərdə uğurla həyata keçirilir. Növbəti layihələrimiz isə mədəniyyət müəssisələrində reallaşacaq. Layihələrimiz "Tarixdə bu gün", "Tarixçilərin qələmindən", "Soyqırımı həqiqətlərini bilək", "Azərbaycan tarixi" adlanır. Əməkdaşlarımız beynəlxalq simpoziumlarda iştirak ediblər. Elmi fəaliyyətimizi dərinləşdirmək məqsədilə Bakı Dövlət Universitetinin tarix fakültəsi və Şamaxı Pedaqoji Universiteti ilə memorandum imzalamışıq. Biz qubalılar ermənilərin xalqımıza qarşı törətdikləri faciələri unutmur, dünya ictimaiyyətinə çatdırmaq üçün daha əzmlə çalışırıq".

Qubalılar şəhərin mərkəzində soyqırıma məruz qalmış həmyerlilərinin xatirəsinə ucaldılmış abidəni vaxtaşırı ziyarət edir, bir əsrdən çox zaman keçməsinə baxmayaraq, o qanlı hadisələri, qırğınları unutmur, faciə qurbanlarını daim anır, xatirəsini daim əziz tuturlar.

**Lalə HÜSEYNOVA
"Azərbaycan Ordusu"**

# Aprel döyüşləri - Zəfərin başlanğıcı...

***2016-cı ilin apreli Azərbaycan Ordusunun növbəti şanlı Qələbəsi ilə tarixləşdi. Azərbaycan Respublikasının Prezidenti bu döyüşlər haqqında qürurla dedi ki, Aprel döyüşləri dərsliklərə salınmalıdır. Bu qələbə ordumuzun həm döyüş, həm də yüksək mənəvi-psixoloji hazırlığa malik olduğunu da təsdiqlədi. Aprel qələbəsi onu da təsdiqlədi ki, Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü ordudur. Bu qələbə xalqımıza bir gerçəkliyi də yaşatdı: Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir - bu döyüşlər Ali Baş Komandanın döyüş əmri ilə başlanacaq döyüşlərdə Azərbaycan ordusunun qalib gələcəyinə, torpaqlarımızı işğaldan azad edəcəyinə əminliyin döyüşləri idi.***

2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Ermənistan silahlı qüvvələri iri miqyaslı təxribatlar törətmək niyyəti ilə ön xətt mövqelərə və yaşayış məntəqələrinə intensiv artilleriya atəşi ilə hücuma başladı. Aprel döyüşləri 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan sonra ən şiddətli döyüşlər idi. Ordumuzun bölmələri hücumun qarşısını aldı, əks-hücumla düşməni geri çəkilməyə məcbur etdi. Bu döyüşlər hərb tariximizə Aprel döyüşləri kimi həkk olundu.

Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən bu döyüşlərdə qüdrətli ordumuz düşmənə sarsıdıcı zərbə vurdu, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini, Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonu istiqamətində işğal altında olan 2000 hektardan çox ərazini işğaldan azad etdi. Bu, döyüşlərin hərbi nəticəsi idi. Onun mənəvi nəticələri isə ordunun şəxsi heyətinin döyüş əzminin, qələbə ruhunun göstəricisi oldu.

Azərbaycan Ordusunun qətiyyətli döyüşləri, qazandığı qələbələri ilə düşmənin məğlubedilməzlik mifinin yalan olduğunu dünyaya nümayiş etdirdi. Xalqımız öz ordusu, qorxubilməz oğulları ilə qürur duydu.

Aprel döyüşləri Azərbaycan dövlətinin, dövlətçiliyinin dönməzliyinin, Azərbaycan əsgərinin gücünün, qüdrətinin ifadəsi kimi tarixləşdi. Bu döyüşlər sübut etdi ki, Azərbaycan Ordusu düşmənin istənilən miqyaslı təxribatının, istənilən hərbi əməliyyatının qarşısını almağa qadirdir. Aprel döyüşləri həm də Azərbaycan Ordusu ilə düşmən ordusu arasındakı güc fərqinin, peşəkarlığının, döyüş hazırlığının fərqinin də təsdiqi oldu.

Aprelin 4-də düşmən itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin əsasən, Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi. Əraziyə yaxın yaşayış məntəqələrimiz intensiv atəşə tutuldu. Ordu hissələrimizin şücaətini görən düşmən döyüşə əlavə qüvvələr cəlb etmək istədi, buna nisbətən nail oldu, ancaq döyüşü davam etdirməyə nail ola bilmədi. Yüksək döyüş hazırlığına malik olan bölmələrimiz düşmənin strateji baxımdan əhəmiyyətli hərbi bazasının qərargahına və "erməni könüllülərini" daşıyan maşınlara tutarlı zərbələr endirdi.

Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qaldı, 320-dən çox düşmən məhv edildi, 500-dən artıq erməni hərbi qulluqçusu yaralandı, 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı. Bu döyüşlər bir daha təsdiqlədi ki, işğalın sonu yaxınlaşıb.

Aprel döyüşləri həm də onu göstərdi ki, Azərbaycan işğal faktı, mövcud status-kvo ilə barışmayacaq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, Azərbaycan ərazilərində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək. Bu bəyanat Azərbaycan adından verilmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qürurla qeyd edirdi ki, Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir, Azərbaycan əsgərinin qələbəsidir, Azərbaycan dövlətinin qələbəsidir: "Biz bütün dünyaya bir daha sübut etdik ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır, bunu beynəlxalq reytinqlər də qeyd edir. Bir daha sübut etdik ki, heç vaxt Azərbaycan indiki vəziyyətlə barışmayacaq və öz ərazi bütövlüyünü bərpa edəcəkdir".

Şanlı hərbi qələbəmiz olan Aprel döyüşləri dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərməklə yanaşı, Azərbaycan xalqının və dövlətinin heç vaxt işğalla barışmayacağını, ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəyini bir daha nümayiş etdirdi.

Aprelin 2-də təxminən saat 05:45 radələrində Lələtəpə Azərbaycan bölmələrinin tam nəzarətinə keçdi. Azərbaycan bayrağını Lələtəpədə dalğalandıran əsgər Asim Quliyev həmin anı belə xatırlayırdı: "Həmin bayrağı dəfələrlə təlimlərə aparmışdım. Yoldaşlar arasında hər zaman arzulayırdıq ki, məhz bu bayraq bizim iştirakımızla azad olunan ərazidə ucaldılsın. Elə qismət oldu ki, Lələtəpə istiqamətində hərəkətə keçəsi olduq. Düşmən səddini yararaq zirvəyə çıxdıq. 1 saatlıq döyüşdən sonra səngərdə bir dənə də olsun müqavimət göstərən düşmən hərbçisi qalmamışdı. Düşmən əlavə qüvvələrlə və artilleriyanın dəstəyi ilə hücuma başlayırdı. Mən hər kəsə zəfərimizi bəyan etmək üçün mərmi partlayışlarını və ölümü nəzərə almayıb bayrağımızı asmaq qərarına gəldim. Həmin vaxt tanklarımızın səsini eşitdim. Onlar köməyə gəlirdilər. Sevinc göz yaşlarıma hakim ola bilmirdim".

Aprel döyüşləri Azərbaycan Ordusunun istənilən döyüş tapşırığını yerinə yetirmək üçün hər cür fədakarlığa və hərbi qüdrətə hazır olduğunu da təsdiqlədi.

Bu Qələbə yüksək döyüş və mənəvi-psixoloji hazırlığın vəhdəti ilə qazanıldı.

O günlərdə hər bir Azərbaycan vətəndaşı özünü ruhən döyüşlərdə hiss edirdi. Xalqımızın ərazi bütövlüyü uğrunda göstərdiyi birliyinin başlanğıcı Aprel döyüşləri oldu. Həmin günlərdə döyüşlərdə iştirak etmək üçün aidiyyəti qurumlara olunan müraciətlərin sayı-hesabı yox idi. Əli silah tuta biləcək hər bir vətəndaş işğal altında olan torpaqlarımızın azad edilməsi üçün döyüşməyə hazır olduğunu göstərdi. Vətən müharibəsində düşməni əzmək üçün "Dəmir yumruğ"a çevrilən də bu xalq-ordu birliyi düşməni qorxuya salmaqla yanaşı, dünyanı heyrətə gətirdi.

Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyətindən biri də bu qələbə sayəsində "Böyük Qayıdış" prosesinin başlanğıcı qoyuldu. Lələtəpə yüksəkliyinin azad edilməsi ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin kəndə qayıdışı ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə "Böyük Qayıdış" prosesinə start verildi. O zaman Cocuq Mərcanlı kəndinin əhalisinin 23 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğalda olan digər ərazilərimizin də tezliklə azad olunacağına xalqımızda dərin inam yaratdı.

Digər bir tərəfdən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və Müdafiə Nazirliyinin rəhbərliyinin təmas xəttinə gedərək, Ermənistan ordusunun atəşləri nəticəsində yaşayış məntəqələrimizə dəyən ziyanla yerində tanış olmaları, yerli əhali, eləcə də ön xətdə şəxsi heyətlə görüşü xalqımızın və ordumuzun düşmən üzərində qəti qələbəyə ümidlərini daha da artırdı.

O zaman Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı bütün dünyaya bir daha nümayiş etdirdi ki, Qarabağ probleminin həlli beynəlxalq təşkilatların biganəliyinə görə, Ermənistanın işğalçılığına görə müddət baxımından uzansa da Azərbaycan torpaqlarını işğaldan azad edəcək. Cocuq Mərcanlı kəndinin yenidən qurulması və yerli əhalinin öz doğma yurdlarına qayıtması gərəkli mesaj idi. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzərinin inşası onu göstərirdi ki, gün gələcək, Şuşanın məscidləri də bərpa ediləcək. Bu yozumun da mahiyyəti döyüş idi, döyüşlə qazanılacaq Qələbə idi. Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu tarixi torpaqlarımızı işğaldan azad etdikdən sonra ilk olaraq Şuşada Yuxarı Gövhər ağa məscidi tam təmir edildi.

Aprel döyüşlərindən sonra erməni saytlarından birində deyilirdi: Talış kəndinin şimal və şimal-qərbdəki yüksəkliklərinin Azərbaycan Ordusunun nəzarətində olması burada tam başqa vəziyyət yaratdı. Döyüşlərə qədər kənddə 573 nəfər yaşayırdı. Hərbi əməliyyatlar bitdikdən sonra isə kənddə cəmi 50 nəfər qaldı. Aprel döyüşlərindən sonra kənd icra hakimiyyətinin binası, şadlıq zalı tikilib, suyun verilişi bərpa edilsə də heç kəs bura qayıtmayıb... Düşmən bilirdi ki, öz əzəli sahibləri çox yaxında bu torpaqları da azad edəcək... Bu tarixə "Dördgünlük müharibə" adı ilə düşən Aprel döyüşlərinə düşmənin yanaşması, qorxusu və narahatlığı idi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Aprel döyüşlərinin əhəmiyyəti barədə dediyi sözlər bu qələbənin ordumuz və xalqımız üçün önəmini açıq şəkildə ifadə edib: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir".

Aprel döyüşlərində Azərbaycan hərbçilərinin yüksək qabiliyyətli döyüş bacarıqları və uğurları dövlət başçısı tərəfindən çox yüksək qiymətləndirildi. 2016-cı il aprelin 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin üç hərbi qulluqçusuna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görüldü, 7 hərbi qulluqçusu "Azərbaycan Bayrağı" ordeni, 1 hərbi qulluqçusu 2-ci dərəcəli və 4 hərbi qulluqçusu 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 hərbi qulluqçusu "Vətən uğrunda" medalı, 43 hərbi qulluqçusu "İgidliyə görə" medalı, 45 hərbi qulluqçusu "Hərbi xidmətlərə görə" medalı, 2 hərbi qulluqçusu "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırıldı.

Aprel Qələbəsindən sonra 2018-ci mayında Naxçıvan istiqamətində Günnüt əməliyyatı ilə on bir min hektarlıq ərazi azad olundu, İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət ələ keçirildi, 2020-ci ildə iyulunda isə Tovuz istiqamətində düşmən təxribatının qarşısı qətiyyətlə alındı, düşmənə sarsıdıcı zərbələr vuruldu. 2020-ci ilin sentyabr ayının 27-də başlanan 44 günlük Vətən müharibəsi işğal altında olan torpaqlarımızın azad olunması ilə nəticələndi, tarixi Zəfər qazanıldı, ədalət bərpa edildi.

Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan Ordusu dövlətimizin qüdrətinin nümunəsidir, xalqımızın iftixar yeridir və ölkəmizin ərazi bütövlüyünü təmin etmək iqtidarında olan yüksək hazırlığa malikdir. Aprel döyüşləri 2020-ci ilin noyabrında qazanılan Zəfərin başlanğıcı idi...

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin məlumatı

**25 mart 2023-cü il.**

Son günlər Ermənistandan Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınması intensivləşib. Bu daşımalar, xüsusilə gecə vaxtı və dumanlı hava şəraitindən istifadə etməklə həyata keçirilir.

Qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən bəzi dağlıq və torpaq ərazilərdən keçməklə bir neçə marşrut üzrə yeni yolların çəkilməsi, həmçinin köhnə cığırların genişləndirilməsi üzrə işlər həyata keçirilir. Bu məqsədlə, hərbi, mühəndis və xüsusi texnikadan, habelə işçi qüvvəsi kimi müqavilələ əsasda hərbi xidmətə cəlb olunmuş şəxslər və yerli sakinlərdən istifadə olunur.

Son bir neçə gündə Xankəndi-Xəlfəli-Turşsu və bu marşrutdan şimalda keçən Xankəndi-Kosalar-Mirzələr-Turşsu yollarında ermənilər tərəfindən qeyri-qanuni tikinti və təkmilləşdirmə işlərinin intensivləşməsi Azərbaycan Ordusunun texniki müşahidə vasitələri ilə qeydə alınıb. Bu yollardan, həmçinin qeyri-qanuni erməni silahlı dəstələrinin döyüş mövqelərinin təminat və təchizatını həyata keçirmək üçün istifadə olunur.

Azərbaycan tərəfinin çoxsaylı müraciətlərinə və bu xüsusda aparılmış müzakirələrə baxmayaraq, silah-sursat və digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması üçün bu günədək heç bir zəruri tədbir görülməmişdir.

Yaranmış vəziyyət nəzərə alınaraq, Laçın yolunun şimalındakı torpaq yollarından qeyri-qanuni fəaliyyətlər üçün istifadənin, eləcə də Ermənistan tərəfindən silah-sursat daşımaqla vəziyyətin gərginləşməsinin və potensial təxribatların törədilməsinin qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən lokal zəruri nəzarət tədbirləri həyata keçirilib.

* * *

Martın 25-i günorta saatlarında Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri Füzuli rayonunun Yuxarı Veysəlli yaşayış məntəqəsi istiqamətində kənd təsərrüfatı işləri adı altında səngərin mühəndis cəhətdən hazırlanması məqsədilə qazıntılar aparmağa cəhd göstəriblər.

Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

# Türkün igidliyi, şəhidliyi

Türk millət olaraq Bilgə xaqanın Orxon-Yenisey abidələrinin bəngüdaşlarında tarixləşmiş nəsihətini həmişə sökülən dan yerinin duası bilib: "Ey türk milləti, titrə və özünə dön, sən özünə dönəndə böyük olursan!". Türk milləti titrəyib, özünə dönüb, ruhən dünyaya sığmayıb - böyük olub...

Torpağa görə, Vətənə görə kəhər yoranların qaranlıqları əridən qılınclarının işığı zaman-zaman türkə dar gələn dünyanın gözlərini qamaşdırıb. Çin Böyük Hunun qüdrətinə sipər kimi Çin səddini yaradıb. Tarix tarix olalı böyük imperiyalar yaradan, sərhədlərini qılıncıyla çəkən, hökmü Doğudan Batıyacan keçən türkün igidliyi dünyaya görk olub, torpağı qoruya-qoruya yaşadan, yaşada-yaşada qoruyanlar böyüyüb - qüdrətlənib, türk olub. "Diriliş Ərtoğrul", "Quruluş Osman", "Alparslan: Böyük Səlcuqlu", ... kimi filmlər türklüyün yurdlaşma, vətənləşmə fəlsəfəsini ifadə edir. İlk həyat dərsi bu fəlsəfə olan türk yeniyetməsi üçün ömür torpaq naminə ilk döyüşlərdən başlayır...

Böyük tarixi şəxsiyyət Mustafa Kamal Paşanın "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir", "Azərbaycan xalqının bizimlə bizdən çox maraqlandığını bilirik" kəlamları yüz ildi Azərbaycanı da, Türkiyəni də sevənlərin ruhunun yaddaşındadı. Bu kəlamlar ürəyə təpər, gözlərə nur kimi yaşadılır...

Böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanla Türkiyəni "Bir millət, iki dövlət" kimi sevirdi, sevdirirdi. Bu sevgi zaman-zaman Azərbaycanın da, Türkiyənin də xoş günlərinin haləsi, çətin günlərinin sipəri olub. İndi də belədi...

Bəxtiyar Vahabzadə min illərin, yüz illərin o üzünü ədəbiyyata "At üstündə doğulub, at üstündə ölən türk" kimi gətirmişdi. Tarixi ifadə edən mahiyyətli tarixi misralar kimi düşüncələrdədi: türk igid doğulur, torpaq naminə, Vətən naminə igid kimi döyüşür, igid kimi şəhid olur. Döyüşə-döyüşə yaşayıb, döyüşə-döyüşə ölmək (müqəddəsliyi dərk edənlər buna ölməzlik deyirlər) fəlsəfəsini türk müəyyənləşdirib. Türkün dünyaya gəlişi də torpağa (Vətənə) gərək olub, ölümü də. Türk gənci dili söz, əli qılınc tutduğu anlardan özünü torpağın (Vətənin) keşikçisi bilir.

Dünyaya ilk salamı Ötükəndə olan türk millətinin sonuncu imperiyası ingilislərin, fransızların, rusların işğalıyla üz-üzə qalanda titrəyən, özünə dönən - böyük olan türk milləti Mustafa Kamal Paşanın sərkərdəliyiylə mübarizəyə - müharibəyə başladı. Türkün türklüyü istiqlal savaşının kəsərinə döndü, türk döyüşdü, igidliklə döyüşdü, torpağa, Vətənə sevgisi, sərkərdəyə inamı, sərkərdənin sərkərdəlik qüdrəti tarix yaratdı. Qalib dövlət olan türk millətinin qüdrəti dünyanın heyrətinə döndü. Türk milləti Mustafa Kamal Paşanın həm sərkərdəliyi, həm müdrikliyi, həm də türklüyü ilə yeni - dünyəvi dövlət yaratdı: Türkiyə Respublikası. Bu dövlət əbədiyyətin dövləti oldu...



Türk xalq adına, millət adına, dövlət adına, Vətən adına döyüşüb, igidliklə döyüşüb. Sarıqamış döyüşləri bir tarixdi, Çanaqqala döyüşləri başqa tarix, Anadolu döyüşləri ayrı tarix. Döyüşlərdə türk mehmetçiyinin sağındasolunda azərbaycanlı döyüşçülər də olub. Bu, ruhun bölünməzliyidi.

Döyüşənlər hər döyüşdə Şükrü Paşanın vəsiyyətini xatırlayaraq döyüşüb: "Düşmən sərhədlərimizi keçdikdən sonra ölsəm, məni dəfn etməyin, qoy ətimi itlər yesin, düşmən sərhədlərimizi keçməmiş şəhid olsam, sabunum, kəfənim çantamdadır" (şəhidliyin mahiyyətini Şükrü Paşa nə qədər müdrikcəsinə müəyyənləşdirib!..)...

İkinci Qarabağ müharibəsindən əvvəl Mübariz İbrahimov da, İkinci Qarabağ müharibəsində Elvin Şükürlü də, onlarla Mübarizlər, Elvinlər də düşmənin üstünə Şükrü Paşa düşüncəsiylə getmişdi.

Tarix deyir ki, Hun imperatoru Tanhu Çiçi çinlilərlə döyüşdə mühasirəyə düşüb, xanımı və oğlu da daxil olmaqla, 1518 nəfərlə ölüm qılıncına kimi vuruşub. Tarix həm də deyir ki, Anadolu Səlcuqlu Türk dövlətinin başçısı Süleyman şah Suriya ilə döyüşdə təslim olmamaq üçün intihar edib, son nəfəsində "Mən türklüyümə və mənliyimə yaraşan iş tutdum", - deyib. Tarix onu da deyir ki, Səlcuqlu Sultanı Alparslan Malazgird Zəfəri ərəfəsində ağ paltar geyinərək sərkərdələrinə deyib: "Bu, mənim şəhidlik kəfənimdir. Savaş meydanında ölsəm, məni bu paltarda dəfn edərsiniz...". Budur, dövlətə görə şəhidliyi budur!

Sonrakı yüz illərdə də, min illərdə də türk türkə kəc baxanlarla döyüşüb - torpağa görə, dövlətə görə igidliklə döyüşüb, dövlətə görə şəhid olub...

Sarıqamış faciəsi türk döyüşçülərinin igidliyinə, igidliyini tamamlayan şəhidliyinə tarixi elegiyadır: 1918-ci il dekabrın sonlarında Osmanlı ordusunun hissələrinə Allahu-Əkbər dağını aşmaq, rus ordusunu mühasirəyə almaq əmri verilmişdi. Düşmənin duyuq düşməməsi üçün Allahu-Əkbər dağında "Allahu-Əkbər!" təkbirlərini ruhən pıçıldayan əsgər və zabitlər qar qalağını dizləyə-dizləyə irəliləyiblər. Hamısı dodaqda kəlmə donduran şaxtada qar əzə-əzə mənzil kəsib. Sarıqamışda 90 min əsgər və zabit şaxtada həlak olub. Bu da şəhidlikdi. Ordu generalı Petroviç Moskvaya göndərdiyi teleqramda heyrətləndiyi bir gerçəkliyi təəssüflə etiraf edirdi: "Onları təslim ala bilmədim, çünki əsir almağa heç kimsə yoxdur. Onlar bizdən əvvəl öz Allahlarına təslim olmuşdular".

Türkün Vətən naminə şəhidliyi budur!

1920-ci ildə türk ordusu igidliklə döyüşdü. Bu, türkün tarixə görk döyüşüydü. Sarıqamışı azad etməsi 90 min şəhid əsgər və zabitin narahat ruhuna gözaydınlığı oldu.

Çanaqqala döyüşləri... Üç işğalçı dövlətlə döyüşlər. Onbaşı Seyid Əlinin igidliyi, igidliyinin yaratdığı qəhrəmanlığı - 245 kiloqramlıq mərmiləri kürəyində daşıması, düşmən gəmisinə atəş açılması, vaxtında atılan bir mərmiylə döyüşün gedişinin dəyişməsi, ... Türkün döyüşü budur! Türkün torpağa görə, dövlətə görə mümkünsüzü mümkünləşdirən igidliyi, hünəri budur!..

Azərbaycanda vəziyyət gərginləşəndə Qafqaz İslam Ordusu Azərbaycanın imdadına yetişdi.

Bakı-Şamaxı yolunun kənarında, Acıdərə vadisində bir məzar var. Yüz ildən artıqdır "Türkün qəbiri" kimi tanınır, "Türkün qəbiri" adı ilə ziyarət olunur. Ötənlər-keçənlər burada ayaq saxlayır, Azərbaycanın qurtuluşu üçün döyüşmüş bir döyüşçünün ruhuna mənəvi borcunu ödəyir.

İllərlə adsız anılıb. Məlum olan gerçəklik: şəhid türk zabitidi, daşnaklarla döyüşdə şəhid olub. İllərdən sonra onun Qədir əfəndi olduğunu deyiblər. Sonralar minbaşı İzzət bəy olduğu müəyyənləşdirilib.

Minbaşı İzzət bəy Acıdərə vadisi yaxınlığında yaralanıb. Döyüş bir qədər səngiyəndə ətrafda yaşayanlar yaralananların köməyinə çatıb. Gülsabah adlı qadın baş örtüyü ilə İzzət bəyin yarasını sarımaq istəyib. İzzət bəy qoymayıb. "Gülləni çıxartmağa kömək elə..." deyib...

Çıxardıqları gülləni özünün istəyiylə İzzət bəyin cib yaylığına büküblər. Yaylıqda bir güllə də varmış.

İzzət bəy yaralılara baş çəkən Nuru paşaya deyib ki, Anadoluda torpaqlarımızı qoruyanların sırasında atam da olub, döyüşüb, ağır yaralananda mehmetçiklərdən xahiş edib ki, gülləni çıxartsınlar. Gülləni çıxardıb dəsmalına büküblər. Atam son nəfəsində mehmetçiklərə deyib ki, bunu oğluma çatdırarsınız. Mən Vətənimiz uğrunda vuruşdum, dövlətimiz üçün şəhid oluram. Oğluma deyin ki, bu gülləni Vətən naminə iki ələsin. Paşam, mən atamın vəsiyyətini yerinə yetirdim, gülləni iki elədim. Tapşırın, bu gülləri oğluma versinlər. Ona atasının Azərbaycanda şəhid olduğunu desinlər. Ruhumu incik salmasın, Vətən üçün bu gülləri üç eləsin...

Türkün Vətən sevgisi, Vətənə görə şəhidliyi budur!..

Nə vaxtsa türkün şəhidliyinə ehtiram kimi üç güllə haqqında ballada yazacam...

Acıdərədə "Türkün qəbiri" kimi tanınan qəbir minbaşı İzzət bəyin qəbridi...

Türk belə döyüşür, belə şəhid olur...

Qəbrin üzərinə qoyulmuş səndüqədə yazılıb: "Bir türk oğlu qəhrəmanındır bu məzar. Gör necə yer ilə yeksan eləyibdir xar-zar. Ərseyi-hərb içrə bir aslanındır bu məzar. Bu qəbir Osmanlı alayı qoşunlarından olan zabitin qəbridir. Qafqaza gəldi, müharibə etdi və şəhid oldu... 1336-cı ildə şərəfli şəhadət daddı, ilqarını seçdi" (tarix hicri ilə qeyd olunub - **R.H.**). Bu yazı mahiyyəti etibarilə epitafiya deyil, daş kitabədi. Onu ruhən Orxon-Yenisey abidələrinin daş kitabələrindən bilirəm...

Türkün igidliyi budur, şəhidliyi budur!..

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə "Bayraktar TB3" markalı ən yeni zərbə PUA təqdim ediləcək



Aprelin 27-dən mayın 1-dək İstanbuldakı Atatürk aeroportunda "TEXNOFEST-2023" aviasiya və kosmik texnologiyalar festivalı keçiriləcək. Festivalda Türkiyənin "Baykar" şirkəti "Bayraktar TB3" markalı ən yeni zərbə pilotsuz uçuş aparatını (PUA) təqdim edəcək.

Şirkətdən Anadolu agentliyinə verilən məlumata görə, "Bayraktar TB3" zərbə dronunun test uçuşları bu il başlanacaq.

Qanadları qatlanıb-açılan "Bayraktar TB3" dünyada ilk dəfə qısa uçuş-enmə zolaqlı dəniz gəmilərinə uçma və enmə əməliyyatlarını yerinə yetirə bilən pilotsuz uçuş aparatı olacaq.

"Bayraktar TB3"ün hərəkətlərini həm kəşfiyyat-müşahidə məqsədilə, həm də zərbə endirmək üçün çox böyük məsafələrdən idarə etmək mümkün olacaq. Gözlənildiyinə görə, "Bayraktar TB3" Türkiyənin hərbi potensialının möhkəmləndirilməsinə sanballı töhfə verəcək.

## Putin: Ukraynaya silah tədarükü təhlükə yaradır



Qərbin Ukraynaya verdiyi silahlar təhlükə yaradır.

Bunu Rusiya Prezidenti Vladimir Putin "Rossiya-24" telekanalının efirində jurnalist Pavel Zarubinə müsahibəsində bildirib.

"Əlbəttə, təhdidlər var. Münaqişədə olduğumuz ölkəyə silah verildikdə, bu, həqiqətən də təhlükə yaradır", - deyə dövlət başçısı Qərbin Ukraynaya silah tədarükünün təhdid olub-olmaması ilə bağlı sualı cavablandırarkən deyib.

## ABŞ Suriyada hərbi mövcudluğunu saxlayacaq



ABŞ Prezidenti Co Bayden Suriyada Amerika qoşunlarının mövcudluğunu saxlamağı planlaşdırır.

Bu barədə ABŞ Milli Təhlükəsizlik Şurasının nümayəndəsi Con Kirbi bildirib.

"Bizim İŞİD-ə qarşı missiyamız dəyişməyəcək. Suriyada qeyd edilən qruplaşmaya qarşı vuruşan 1000-ə qədər hərbçimiz var. Bu qruplaşma azalsa da, hələ də canlıdır", - deyə Kirbi CBS telekanalında bildirib.

Qeyd edək ki, ABŞ hazırda Suriyada kiçik hərbi birləşmələr saxlayır. Onlar, əsasən, bəzi neft və qaz yataqlarını nəzarətdə saxlayırlar. Rəsmi Dəməşq isə bu qüvvələrin öz ərazisindən çıxarılmasını tələb edir.

## Moldovada NATO ölkələrinin iştirakı ilə hərbi təlimlər başlayıb



Moldovada NATO ölkələrinin iştirakı ilə hərbi təlimlərə start verilib.

Moldova Müdafiə Nazirliyi xəbər verir ki, martın 27-də başlanan "JCET-2023" hərbi təlimlərində Moldovanın hərbçiləri ilə yanaşı, Rumıniya, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Şimali İrlandiyanın hərbçiləri iştirak edirlər.

Aprelin 7-dək davam edəcək birgə hərbi təlimlər xüsusi təyinatlıların təcrübə mübadiləsinə, habelə iştirakçı kontingentlər arasında qarşılıqlı fəaliyyət səviyyəsinin artırılmasına yönəldiləcək.

Ssenariyə əsasən, dörd ölkənin hərbi qulluqçuları konkret tapşırıqlarla yanaşı, təkmil döyüş atışları, paraşütlə eniş, səhra təlimlərini yerinə yetirəcəklər.

**AZƏRTAC-ın materialları əsasında**

*Gənc zabitlərimiz*

# Ən məsuliyyətli vəzifə

Xalqa və Vətənə sədaqətlə xidmət edən hərbçilərimiz qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirməklə onlara göstərilən etimadı doğruldurlar. Zabit olmaq hərbçidən Vətən sevgisindən savayı, dərin bilik, möhkəm iradə, yüksək intizam da tələb edir. Öz təcrübələrini gənc əsgərlərə öyrədən komandirlərimiz ordumuzun döyüş qabiliyyətinin yüksəlməsi üçün üzərlərinə düşən məsuliyyətli vəzifənin öhdəsindən gəlməyi peşəkarlıqla bacarırlar. Belə ki, ordu sıralarına yeni qəbul olunan əsgərlərimizin hərbi vərdişlərinin artırılması, ixtisas biliklərinə yiyələnməsi birbaşa təcrübəli komandirlərimizin üzərinə düşür.



"N" hərbi hissəsində olarkən rəhbərliyin haqqında yüksək fikirdə olduğu deyilən gənc zabit Müşfiq Rəhimli ilə yaxından tanış olduq. Baş leytenant Müşfiq Rəhimli 2009-2013-cü illərdə Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya fakültəsində təhsil alıb. Daha sonra Bakı Dövlət Universitetinin Milli Təhlükəsizlik və Siyasi Strategiya ixtisası üzrə təhsilini davam etdirib. 2017-ci ildən Azərbaycan Ordusunda xidmətə başlayan zabit M.Rəhimli ilə apardığımız söhbəti qələmə aldım. Baş leytenant dedi ki, Vətənimizin varlığı və xalqımızın rifahına xidmət edən hər bir peşə müqəddəsdir. Lakin hərbçi peşəsi onların fövqündə dayanır. Çünki Vətəni qorumaq ən ali vəzifə, müqəddəs peşədir. Bu fikri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev çıxışlarından birində çox dahiyanə şəkildə demişdir: "Müstəqil Azərbaycanda hər peşə şərəflidir, ancaq Vətəni qorumaq peşəsi ən şərəfli peşədir". Qısa vaxt ərzində görülən böyük quruculuq işləri sayəsində ordumuzun döyüş və özünümüdafiə qabiliyyəti yüksəldi. Birinci Qarabağ müharibəsi zamanı uğurlu Horadiz əməliyyatı, 2016-cı ildə Aprel döyüşləri, 2018-ci ildə Günnüt zəfəri və nəhayət, 2020-ci ilin sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi (İkinci Qarabağ müharibəsi) uzun illər mənfur düşmən tərəfindən işğal altında olan tarixi torpaqlarımızın azad olunması, uğurlu hərb siyasətinin təcəssümü oldu. Çünki Vətəni sevmək yetməz, onu qorumaq da gərəkdir. Azərbaycan əsgəri ərazi bütövlüyümüzü hər zaman etibarlı şəkildə qoruyub, bu gün də layiqincə qoruyur və bundan sonra da qoruyacaq. Çünki Azərbaycan əsgəri xalqının ümid yeri, Azərbaycan xalqı əsgərinin ilham mənbəyidir.

Zabit hərbçi peşəsinə yiyələnməsindən və komandirlə əsgər münasibətinin əsas şərtlərindən danışdı. Dedi ki, Vətən sevgisi ülvi hissdir, doğma yurda, onunla əlaqəli olan bütün varlıqlara bağlılıqdır. "Bakıya gedəndə Şəhidlər xiyabanında əzəmətlə dalğalanan bayrağımıza, daim yanan məşələ baxıram. Vətən sevgisinin sönməyən odu alovudur o məşəl. Bu günə qədər müstəqilliyimiz uğrunda minlərlə soydaşımız canını qurban verib. Şəhidlik zirvəsi hər kəsə nəsib olmur. Vətənpərvərlik - Ana Vətənin bütövlüyü, xalqın varlığı üçün ölümün gözünə dik baxmaqdır. Hər bir şəxsin həyatında bir məqsədi olur. Mənim də həyatım boyu ən böyük arzum Vətənimə layiqli vətəndaş olmaqdır. Bu ali məqsədimin astanasındayam. Hərbçi vətənpərvərlik hissini dərindən yaşayan peşə sahibidir. Seçdiyim peşə özündə ağır məsuliyyət, polad iradə, yüksək bilik və hərbi intizamı ehtiva edir. Özümlə yanaşı, əsgərlərin də hərbi mühitə tam uyğunlaşması üçün əlimdən gələni əsirgəmirəm. Zabit tabeliyində olan şəxsi heyət üçün ən yaxşı nümunə olmalıdır. Qayğıkeşlik və tələbkarlıq hər bir komandirin əsgəri ilə münasibətinin təməlidir. Komandir əsgəri üçün yaxşı yoldaş olmalıdır ki, əsgər də komandirinə layiqli silahdaş olsun. Bütün bunlara nail olmaq üçün də şəxsi heyətin döyüş hazırlığı ilə yanaşı, mənəvi-psixoloji hazırlığını da yüksək səviyyədə saxlamaq qarşımızda dayanan ən məsuliyyətli vəzifədir. Əsgərin əsl döyüşçü kimi hazırlanması üçün tələb olunan şərtlər biz zabitlərin gündəlik işidir, xidmətidir".

Xidməti vəzifəsinin öhdəsindən bacarıqla gələn baş leytenant M.Rəhimli ilə söhbətdən çox məmnun qaldıq. Əmin olduq ki, belə bacarıqlı, peşəkar zabitlər hərbi sirləri sabahımızın əsgərlərinə dərindən öyrədəcəklər. Onun komandiri olduğu şəxsi heyətin döyüş hazırlığı daim yüksək səviyyədə olacaq. Deməli, zabit və əsgərlərimiz gələcək xidmətlərində daha da böyük uğurlar qazanacaqlar.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*




Braziliyanın cənub-qərb hissəsində, Paraqvay çayının yuxarı axarında yerləşən və sıx bitki örtüyü ilə örtülən, təxminən 150 min km² ərazini əhatə edən Pantanal - dünyanın ən nəhəng bataqlıq ərazisidir. İnzibati cəhətdən böyük hissəsi Braziliya, az bir qismi Paraqvay və Boliviya ərazisində yerləşir. Əslində, bu, iki çayın - Paraqvay və Kuyabanın deltalarını birləşdirən və daimi daşqınlar nəticəsində nəhəng bataqlığa çevrilən tektonik çökəklikdir.

Pantanal ən böyük şirin su bataqlığıdır və dünyanın bütün bataqlıq ərazilərinin təxminən 3 faizini təşkil edir.

Pantanal nadir bitkilərin bitdiyi, nəhəng və ekzotik kəpənəklərin, nadir quşların və heyvanların yaşadığı unikal qorunan ərazidir. UNESCO Pantanalı "bütün bəşəriyyətin təbii irsi" və "biosfer qoruğu" elan edib. Pantanal Milli Parkı 2 sentyabr 1981-ci ildə yaradılıb, lakin 1993-cü ildə qoruq elan edilib.

Bataqlıq 50-70 metr dəniz səviyyəsindən yuxarıda yerləşir. Şərqdən və cənub-şərqdən Braziliya yaylası ilə əhatə olunub. Canlılar aləmi ilə zəngindir. Burada 3500 növ bitki, 650 növ quş, 230 növ balıq, 80 növ məməli, 50 növ sürünən yaşayır. Bunlardan əlavə, bölgə 20 milyon timsahın "evi"dir.

Milyonlarla ildir ki, Pantanalın xüsusi iqlimi (yayda nəm və isti, qışda quru və sərin) yalnız bu bölgə üçün xarakterik olan unikal flora və faunanın inkişafına kömək etmişdir. Noyabrda başlayan yağışlı mövsümdə tropik leysanların təsiri altında Paraqvay çayının qolları sahillərindən daşır, çoxsaylı laqunlar və digər su anbarları daşaraq Pantanalı nəhəng şirin su okeanına çevirir. Bununla belə, çöl bitkiləri və ya ağacları ilə örtülmüş yaşıl adalar suyun səthinin üstündə qalır. Bu təbiət hadisəsi sayəsində Pantanal yer kürəsinin bioloji cəhətdən ən zəngin ərazilərindən biri hesab olunur. Daşqınlar zamanı su axınları qarışır - yerli torpaqlar təzələnir və zənginləşir.

Bura təkcə su sakinlərinə deyil, həm də həmişə kifayət qədər qidası bol olan quşlara, sürünənlərə və məməlilərə həyat verir. Mayda, su azaldıqda, əl ilə su anbarlarında balıq tutmaq mümkündür. Pantanalın ərazisində nəhəng çay su samurları, yaquarlar, bataqlıq maralları, tapirlər, anakondalar, meymunlar, timsahlar, dünyanın ən böyük gəmiriciləri və 90-a yaxın sürünən növü yaşayır.

Pantanal bataqlıqlarının florası iki fitoekoloji bölgənin - mövsümi meşələrin və savannaların birləşməsinə görə çox müxtəlifdir.

Pantanal bataqlıqlarında planetin ən böyük tutuquşusu - Anodorhynchus da yaşayır.

Hər il 1 milyondan çox turist heyvan və bitki aləminin nümunələrini birbaşa görmək üçün Pantanalı ziyarət edir.

Pantanal dünyanın ən böyük tropik bataqlıqlarından biri olsa da, hazırda bütün ərazinin 5 faizdən az hissəsi qorunur.

**"Azərbaycan Ordusu"**

# İdman

## "Qalatasaray" klubu Bakıda xeyriyyə oyununda qələbə qazanıb



Ağdamın "Qarabağ" və Türkiyənin "Qalatasaray" klubları arasında Bakı Olimpiya Stadionunda xeyriyyə oyunu keçirilib.

Oyunda hesabı "Qalatasaray" açıb. Matçın 4-cü dəqiqəsində İstanbul təmsilçisinin heyətində Bafetimbi Qomis fərqlənib. Görüşün 19-cu dəqiqəsində "Qarabağ"ın oyunçusu Redon Cica hesabı bərabərləşdirib. Matçın ilk hissəsi 1:1 hesablı heç-heçə ilə başa çatıb.

Matçın 87-ci dəqiqəsində oyunda üçüncü qol vurulub. İstanbul təmsilçisinin hücumçusu Mauro İkardi penaltini dəqiq yerinə yetirib.

Beləliklə, xeyriyyə görüşü "Qalatasaray"ın 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Görüşdən əldə olunan gəlir Türkiyədə baş vermiş zəlzələdən əziyyət çəkənlərə yardım üçün göndəriləcək.

## Azərbaycanlı karateçilər Avropa çempionatında 8 medal qazanıblar



Karateçilərimiz İspaniyanın Qvadalahara şəhərində Avropa çempionatında 8 medal qazanıblar.

Mükafatların biri qızıl, dördü gümüş, üçü isə bürüncdür. 8 medaldan 1 qızıl, 2 gümüş və 1 bürünc medala para-karateçilər sahib olub.

Fərdi kumite yarışlarında İrina Zaretska (-68 kq) və Fəridə Əliyeva (68+ kq) Avropa ikincisi olublar. Tural Ağalarzadə (-67 kq) və Fərid Ağayev (-75 kq) isə bürünc medal qazanıblar. Bu nəticə ilə Azərbaycan medal qazanan ölkələr arasında Xorvatiya ilə 9-10-cu yerləri bölüşüb. 5 gün davam edən qitə çempionatında 48 ölkədən 468 idmançı iştirak edib.

Para-Karateçilərin Avropa çempionatında Emiliya Mitlinova birinci yeri, Eldar Əhmədov ikinci pilləni, Nihat Məmmədzadə və Ariyana Mitlinova isə üçüncü sıranı tutublar. Para-karateçilərimiz medal sıralamasında ikinci olublar.

Böyüklərin növbəti Avropa çempionatı 2024-cü ildə Xorvatiyada keçiriləcək.

## Azərbaycan beynəlxalq Abilimpiya çempionatında ilk medalını qazanıb



Fransanın Metz şəhərində X beynəlxalq Abilimpiya çempionatı keçirilir.

Azərbaycan debüt etdiyi çempionatda ilk medalını qazanıb.

Yığmamızın üzvü Leyla Rəsulova bürünc medala sahib olub.

Milçə ilə toxuculuq peşə sahəsi üzrə keçirilən yarışda təmsilçimiz üçüncü olub.

## Azərbaycanlı idmançı ciu-citsu üzrə Gürcüstan çempionu olub



Gürcüstanın Kareli bölgəsində idmanın Braziliya ciu-citsusu növü üzrə ölkə çempionatı keçirilib.

Çempionatda Gürcüstanın şəhər və rayonlarından 100-dək idmançı iştirak edib.

Marneulidən olan gənc idmançı İmran Məmmədov 100 kiloqram (kq) çəki dərəcəsində birinci yeri tutub.

Bundan başqa, məşqçi və idmançı İmran Məmmədovun yetirmələri Ramazan Vəliyev 80 kiloqram çəki dərəcəsində, Vüsal Abılov 55 kiloqramda 2-ci yerə, Samir İsayev isə (70 kq) 3-cü yerə sahib olublar.

İmran Məmmədov bildirib ki, azərbaycanlı idmançılar indi beynəlxalq miqyaslı yarışlara hazırlaşırlar. Beynəlxalq turnirlərdə iştirak və qalib gəlmək qarşıda duran ən başlıca məqsəddir.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 156
Nüsxə 4725